# Fəal təlim metodlarının psixi inkişafa təsiri

**Nəzrin Məmmədzadə**
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** miss.nezrin1996@mail.ru

**Rəyçilər:** ped.ü.f.d Z. İ. Əliyeva,
psixol.ü..f.d, dos. M.C. İsmayılova

**Açar sözlər:** fəal təlim, akvarium, beyin həmləsi, Klaster, Venn diaqramı, kəsişən dairələr, müqayisə, kreativ
**Ключевые слова:** активное обучение, аквариум, кровоизлияние в мозг, кластер, диаграмма Венна, пересекающиеся круги, сравнение, творческий
**Key words:** active training, aquarium, brain attack, cluster, Venn diagram, intersecting circles, comparison, creative

Ümumiyyətlə təkcə təlim fəaliyyətində deyil, bütün fəaliyyət sahələrində məqsədə müvəffəqiyyətlə çatmaq üçün düzgün üsul seçməyin əhəmiyyəti böyükdür. Müasir dövrdə cəmiyyət təlim-tərbiyə qarşısında daha fəal, biliklərini operativ şəkildə tətbiq etməyi bacaran, dünya bilik sisteminə müstəqil inteqrasiya edə bilən, yaradıcı şəxsiyyətlər yetişdirmək tələbini qoymuşdur. Bu tələb əsasında təlimin məzmunu dəyişdirilmiş, yeni "fəal təlim" meydana çıxarılmışdır. Fəal təlim isə şagirdlərin idraki inkişafını fəallaşdıran, onları yaradıcılığa, müstəqil düşünməyə, biliklərini tətbiq etməyə məcbur edən yeni təlim üsulları tələb edir. Bu metodlar cəmiyyətin hərtərəfli inkişaf etmiş şəxsiyyətlər yetişdirmək tələbinə cavab verir. Fəal təlim metodları müəllimlərin təlim məqsədinə daha səmərəli şəkildə çatmaq üçün istifadə etdikləri yollar və tərzlərdir. Metodların seçilməsində fənnin məzmunu, həmçinin təlim məqsədi nəzərə alınır.

Təlim metodlarının düzgün seçilməsinin kiçik məktəblilərin psixi inkişafına təsiri böyükdür. Təlim metodlarının düzgün seçilməsi ixtiyari və kortəbii şəkildə həyata keçirilməməlidir. Təlim metodu seçilərkən müəllim tərəfindən bir sıra faktorlar nəzərə alınmalıdır.

Təlim metodu seçilərkən bir neçə şərti göz önündə saxlamaq vacibdir. Bunlar aşağıdakılardır:

— təlim qanunauyğunluqları və prinsipləri;
— hər hansısa fənnin ayrı-ayrı mövzularının məzmunu və metodları;
— təlimin məqsəd və vəzifələri;
— məktəblilərin təlim imkanları (yaş, hazırlıq səviyyəsi, sinif kollektivinin xüsusiyyətləri və s);
— xarici şərtlər (coğrafi, istehsalat, mühit və s);
— müəllimlərin imkanları və s.;

Təlim metodlarına təsir edən amillərə isə aşağıdakıları aid edə bilərik:

— təlimin məqsədi, əldə olunacaq təlimin səviyyəsi;
— təlimin motivləşməsi;
— təlim materialının normaları və mürəkkəbliyi;
— şagirdlərin hazırlıq səviyyəsi;
— təlim prosesində xüsusi bacarıq və qabiliyyətlərin formalaşdırılması;

— təlimin müddəti;

— təlimə sərf olunan maddi-texniki baza və şərait;

— təlim prosesi zamanı müəllim və şagirdlər arasında qarşılıqlı əlaqə;

— sinifdə şagirdlərin sayı.

İbtidai təhsildə müasir təlim üsullarının tətbiqi. İnteraktiv metodlar. Fənn kurikulumlarının tətbiq olunması yeni təlim üsullarının tətbiqi məsələsini də gündəmə gətirir. Müasir təlim strategiyasına müvafiq olaraq təlim prosesində müxtəlif üsullar tətbiq olunur: beyin həmləsi, ziqzaq, Venn diaqramı, akvarium, karusel, BİBÖ, klaster, mühazirələr, müzakirələr, qərarlar ağacı, insert, esse və s. Bu metodlardan bir neçəsi haqqında ətraflı məlumat verək.

Akvarium üsulu. Bu üsulun məqsədi sinif kollektivində diskussiya, müzakirə qabiliyyətinin inkişaf etdirilməsidir. Bu metod bir neçə formada tətbiq edilir. 1-ci variant. Şagirdlərin də iştirakı ilə diskussiya aparmağın qayda-qanunları öncədən müəyyənləşdirilir. Sonra şagirdlər 2 qrupa bölünür. Bir qrup şagird dairənin daxilindəki stullarda əyləşərək müəllimin təklif etdiyi mövzunu müzakirə edirlər. Digər qrup isə müzakirənin müəyyən olunmuş qayda-qanunlara uyğun olub-olmamasına nəzarət edir. Sonra qiymətləndirmə prosesi həyata keçirilir. Daha sonra isə, qruplar yerlərini dəyişdirirlər və həmin proses təkrar həyata keçirilir. 2-ci variant. Dairədə toplaşan şagirdlər müəllimin verdiyi mövzunu müzakirə edirlər, lakin 1-ci haldan fərqli olaraq bu zaman yalnız mövzunun lehinə olan fikirləri səsləndirirlər. Digər qrup şagirdlər də, qarşı komandanı dinləyir, deyilənləri qeyd edir, təhlil edir, sonra da öz əks-dəlillərini söyləyirlər. Müəyyən müddətdən sonra qruplar yerlərini dəyişir və həmin proses təkrarlanır.
Sinif kollektivində Akvarium üsulundan istifadə edilən zaman ilk növbədə şagirdlərin diqqəti, qavrayışı, hafizəsi, təfəkkürü və nitqi öz funksiyalarını daha operativ şəkildə həyata keçirə biləcək səviyyədə inkişaf edirlər.

BİBÖ üsulu. (Bilirik, istəyirik bilək, öyrəndik) Bu üsulun əsas mahiyyəti diaqnostik qiymətləndirmə və özünüqiymətləndirmədir. Bu üsul müəyyən mərhələlər üzrə həyata keçirilir. Bu mərhələlər aşağıdakılardır:

1. Təhlil olunacaq mövzu müəllim tərəfindən elan edilir.
2. Müəllim lövhədə 3 sütundan ibarət cədvəl qurur və oraya — Bilirik/İstəyirik bilək/ Öyrəndik - bölmələrini qeyd edir.
3. Şagirdlər mövzu ilə bağlı bildiklərini deyir, fikirlərini irəli sürürlər və bütün deyilənlər cədvəldəki 1-ci sütunda qeyd olunur.
4. Həmin mövzu ilə bağlı şagirdlərin bilmək istədikləri isə 2-ci sütunda yazılır.
5. Dərsin sonunda isə şagirdlərin öyrəndikləri, mənimsədikləri nüanslar 3-cü sütunda qeyd olunur.

BİBÖ üsulu müəllimləri araşdırmağa, tədqiqat aparmağa, biliklərini və dünyagörüşlərini daha da çoxaltmağa, ən əsası isə onları düzgün şəkildə tətbiq etməyə, bilik və bacarıqlarından səmərəli şəkildə istifadə etməyə, bütün bunlarla yanaşı kollektivi idarə etmək, şagirdlərlə düzgün münasibət qurmaq, öz mövqeyini və statusunu düzgün formada seçib və layiqincə təmsil etmək kimi şəxsi bacarıq və qabiliyyətlərini də inkişaf etdirməyə və s. kimi işlərə sövq edir.

BİBÖ metodu vasitəsi ilə ilk növbədə şagirdlərin bilik səviyyəsi artır, dünyagörüşü genişlənir. Kollektivdə düzgün davranış bacarıqlarına yiyələnmələri, özlərini sərbəst şəkildə ifadə etmələri, həyəcan, utancaqlıq, sosial fobiya və s. kimi psixoloji problemlər olmadan təlim-tərbiyə fəaliyyətində şəxsiyyət kimi inkişaf etmələri şagirdlərin bu metod vasitəsilə əldə

etdikləri qabiliyyətlər sırasındadır.

Beyin həmləsi üsulu. Bu üsula “əqli hücum” da deyilir. Bu üsulu tətbiq etməyin əsas məqsədi, şagirdlərin nəyi yaxşı, nəyi pis bildiklərini üzə çıxarmaq, onlarda yeni mövzulara qarşı maraq oyatmaqdır. Öncə hazırlanmış sual ya lövhədə yazılır, ya da müəllim tərəfindən şifahi şəkildə şagirdlərin nəzərlərinə çatdırılır. Sonra şagirdlər mövzu ilə bağlı fikirlərini bildirməyə başlayırlar. Bütün fikirlər müzakirəsiz və şərhsiz qəbul olunur. Ən sonda isə bütün söylənilənlər təhlil olunur və qiymətləndirilir. Bir nüansı da qeyd etmək vacibdir ki, bu metod vasitəsi ilə həm fəndaxili, həm də fənlərarası inteqrasiya həyata keçmiş olur.

Klaster üsulu. Bu üsul anlayışların təsnifatını yaratmaq bacarığını inkişaf etdirir. Müəllim lövhədə böyük bir dairə çəkir və ya şagirdlərə öz iş vərəqlərində dairə çəkmək işini tapşırır. Sonra mərkəzdə yazılmış anlayışla bağlı söz və ya ifadələr yazılmağa başlanılır. Mərkəzdə yazılan anlayışdan başlayaraq onunla bağlı bütün söz və ifadələr xətlərlə birləşdirilir. Vaxt bitənə qədər mümkün qədər çox fikir irəli sürülməyi tələb olunur. Vaxt bitəndən sonra alınan klaster müzakirə edilir və ümumiləşdirmə aparılır. Bu metod ümumi fikirlərin xüsusiləşməsi üçün uğurlu bir metod hesab olunur.

Venn diaqramı üsulu. Əşya və ya hadisələri müqayisə etmək, onlar arasında oxşar və fərqli cəhətləri müəyyənləşdirmək üçün bu üsuldan istifadə olunur. Bu üsulun həyata keçirilməsi qaydası aşağıdakı mərhələlərdə ifadə olunmuşdur:

1. Öncə müqayisə olunacaq əşya və ya hadisələr müəyyənləşdirilir.
2. Kəsişən dairələr çəkilir (ortada yazmaq üçün də yer saxlanılır).
3. Birinci və üçüncü dairədə müqayisə olunacaq obyektlər qeyd olunur.
4. Şagirdlər həyata keçiriləcək iş ilə bağlı məlumatlandırılır.
5. Müqayisə olunacaq obyektlər təsvir edilir.
6. Müqayisə nəticəsində ən sonda fikirlər ümumiləşdirilir.

Fəal təlim metodları şagirdlərin psixi həyatından da təsirsiz ötüşmür. Fəal təlim metodlarının şagirdlərin psixi inkişafında oynadığı rol aşağıdakı bəndlərdə qeyd olunmuşdur:

1. Bu metodlar şagirdlərin aktiv düşünmə və tədqiqat fəaliyyəti qabiliyyətini artırır;
2. Şəxsiyyətin özünüqiymətləndirmə qabiliyyətini formalaşdırır;
3. Müstəqil düşünməyi və sərbəst fikir yürütməyi aşılayır;
4. Şagirdlərdə əməkdaşlıq etmək-başqaları ilə çalışmaq, ümumi hədəf yolunda birgə fəaliyyət göstərə bilmək bacarıqlarını təmin edir;
5. Şagirdlərə başqalarını dinləməyi, müxtəlif fikirlərə qarşı hörmətli davranmağı və dözümlü olmağı öyrədir;
6. Kreativ təfəkkürü inkişaf etdirir;

Pedaqoq və psixoloqlar təsdiq etmişdir ki, öyrənmə fəal, mürəkkəb idrak prosesidir. Məhz bu zaman şagirdlər “Niyə?”, “Nə üçün?” tipli suallarla qarşılaşırlar. Yalnız əqli qabiliyyətin, müstəqil düşünmənin, mühakimə yürütmə qabiliyyətinin inkişaf etdirilməsi ilə bu suallara cavab tapmaq olar.

Kiçik yaşlı məktəblilərin əqli inkişafı, idrak fəallığı üçün çalışmaq çox mürəkkəb bir işdir. Bu həmin müəllimdən böyük zəhmət tələb edir. Bu zaman müəllimlər hər hansısa mövzunu şagirdlərə izah edərkən çalışmalıdırlar ki, onlar deyilənləri şüurlu şəkildə mənimsəsinlər. Fəal təlim metodları da şagirdlərdə bu şüurlu mənimsəməni, onların idrak fəallığının inkişafında zehni qabiliyyətlərin rolunun artırılmasını, hər hansısa məsələyə sərbəst şəkildə fikir bildirmək kimi xüsusiyyətin yaranmasını təmin etmiş olur. Bununla yanaşı olaraq, fəal təlim metodları şagirdlərdə təfəkkürün tənqidiliyi, müstəqilliyi və çevikliyinə də zəmin yaradır.

**Məqalənin aktuallığı.** Müasir dövrdə dövlətlərin bir-birinə inteqrasiya etdiyi bir zamanda

fəal təlim metodları aktualdır, çünki fəal təlim metodları fəal şəxsiyyət, biliklərini istənilən şəraitdə tətbiq etməyi bacaran insanlar yetişdirir.

**Məqalənin elmi yeniliyi**. Bu məqalədə elmi yenilik fəal təlim metodlarının, təhsilalanların psixi inkişafına təsiri xüsusiyyətləri və bunun əhəmiyyətinin izah edilməsindən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Mövzunun praktik əhəmiyyəti ondan ibarətdir ki, bu məqalədən həm nəzəriyyə ilə məşğul olan tədqiqatçılar, həm də praktik fəaliyyətlər həyata keçirən məktəb müəllimləri istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Abdullayev A, Abdullayeva S. İbtidai təhsilin pedaqogikası. Bakı, 2016.
2. Ağayev.Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu, 2006.
3. Xəlilov S. Təhsil, təlim, tərbiyə. Bakı, 2005.
4. Kazımov N.M. Tətbiqi pedaqogika. Bakı: Çaşıoğlu, 2002.
5. Veysova Z.F. Fəal interaktiv təlim: Müəllimlər üçün vəsait. Bakı, 2007.
6. Nəzərov A.M, Müasir təlim texnologiyaları. Bakı, 2012.
7. Kazımov N.M. Məktəb pedaqogikası, Bakı: Maarif, 2002.
8. Н. Б. Басова. Педагогика и педагогическая психология. М., 1990.
9. Подласый И.П. Педагогика М., 2000.

**Н. Мамедзаде**

## Влияние активных методов обучения на умственное развитие

## Резюме

В статье коротко и конкретно объясняется сущность интерактивного метода обучения. Тут идет речь про роль этих методов в формировании учеников, особенно их когнитивные развития.

**N. Mamedzadeh**

## Effect of active learning methods on mental development

## Summary

İn this article the essence of active teaching methods is explained in a short and concrete way and the article deals with their roles in the cognitive development of students, in general, their roles in the formation of students.

**Redaksiyaya daxil olub:** 12.02.2019